# Millət vəkili kənd təsərrüfatının inkişafını zəruri sayır



*Yanvarın 24-də Azərbaycan Respublikası Milli Məclisinin Regional məsələlər komitəsinin iclası keçirilib. İclasda komitənin Milli Məclisin 2016-cı il payız sessiyası dövründə gördüyü işlər barədə hesabatı və 2017-ci il yaz sessiyasının iş planı layihəsi müzakirə olunub.*

Komitə sədri Arif Rəhimzadə komitənin yaz sessyası ərzində Milli Məclisin müzakirəsinə təqdim edəcəyi qanun layihələrinin hazırda razılaşma mərhələsində olduğunu bildirib. Komitə sədri onu da deyib ki, bunlar "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunda düzəlişlər edilməsi haqqında qanun layihəsi, "Azərbaycanın 2002-ci il 15 mart tarixli 247-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə qanun layihəsi, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi, "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" qanunlara dəyişiklik layihələridir.

Komitə sədrinin müavini Fəttah Heydərov bildirib ki, günün və yerli şəraitin reallığına uyğun qanunvericilik bazası hazırlamaq üçün Milli Məclisin Regional komitəsinin üzvləri yerlərdə olub və yerli şəraitə uyğun qanunlar hazırlayıblar. Məhz bunun nəticəsidir ki, son dövrlərdə bələdiyyələrin də fəaliyyətində canlanma müşahidə olunmaqdadır. Bunu biz hiss edirik. Deputat hesab edir ki, bundan sonra da bu iş davam edəcək: "Ümid edirəm ki, görülən tədbirlər öz müsbət nəticəsini verəcək. Çünki idarəetmə hər zaman əyanilik tələb edir. Bu əyanilik də ondan ibarətdir ki, məsələnin mahiyyəti həm qanunvericilik nöqteyi-nəzərindən, həm də yerli şəraitə uyğun olaraq nəzərdə tutulur, həyata keçirilir. Bax, bu mənada bu sessiya ərzində komitənin fəaliyyətini yüksək qiymətləndirirəm. Hesab edirəm ki, işlər aktiv formada davam etdirilməlidir. Amma bununla bağlı problemli məsələlər də var ki, o məslələr də həllini tapmalıdır". Komitə sədrinin müavini bildirib ki, komitə ötən dövrdə uğurlu fəaliyyət göstərib, qəbul edilən qanunlar bələdiyyələrin fəallığına müsbət təsir göstərib.

Millət vəkili deputatların və bələdiyyələrin ölkədə kənd təsərrüfatının inkişafı sahəsində öz səylərini artırmalarını zəruri saydığını deyib: "Qəbələ rayonunda əsasən maldarlıqla məşğul olurlar. Yay aylarında Qəbələdə heyvandarlığın inkişafı üçün münbit şərait var, ancaq qışda aran rayonlarında qışlaqlara ehtiyac yaranır. Əvvəllər Qəbələ əhalisinin qışlaqlardan istifadə sahəsində problemi olmayıb. Amma son zamanlar bu sahədə müəyyən problemlərə rast gəlinir. Belə problemlər aradan qaldırılmalıdır ki, kənd təsərrüfatının, maldarlığın inkişafı daha sürətli olsun".

İclasın sonunda komitənin Milli Məclisin 2016-cı il payız sessiyası dövründə gördüyü işlərə dair hesabatı qəbil edilib, yaz sessiyasının iş planı layihəsi təsdiqlənib.

***QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2017-ci İLİN FEVRAL AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBUL-GÖRÜŞLƏRİN QRAFİKİ***

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Topbağ kəndi | 07.02.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Yeni Dizaxlı kəndi | 14.02.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Cığatelli kəndi | 21.02.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Vəndam qəsəbəsi | 28.02.2017 | Qəsəbə məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# 29 yanvar Gömrük İşçiləri Günüdür

*Azərbaycanın XXI əsrin astanasında müstəqillik əldə etməsi onun tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Milli sərvətimiz olan müstəqilliyimizin dönməz xarakter alması, ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti dünya dövlətləri sırasında Azərbaycanımızın özünə layiqli yer tutmasında mühüm rol oynamışdır. 1993-cü ilin ikinci yarısından etibarən Azərbaycanın yüksələn xətlə inkişafı, onun suverenliyinin təmin edilməsi ölkədə aparılan uğurlu gömrük siyasətilə də bilavasitə bağlıdır. Belə ki, ölkəmizdə qısa bir zamanda gömrük işinin təkmilləşdirilməsi, gömrük orqanlarının maddi-texniki və normativ-hüquqi bazasının möhkəmləndirilməsi, ümumdünya gömrük sisteminə inteqrasiyası istiqamətində uğurlu addımlar atılmışdır.*

# Hesabat yığıncağı keçirilmişdir

*Yanvarın 23-də Nic qəsəbə inzibati ərazi nümayəndəliyində hesabat yığıncağı keçirilmişdir. Yığıncaqda qəsəbə sakinləri, ziyalılar, ağsaqqallar və Qəbələ Payon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov iştirak etmişlər.*

İcra nümayəndəsi İbrahim Məmmədov inzibati ərazi nümayəndəliyi tərəfindən qəsəbədə 2016-cı ildə görülmüş işlərə və 2017-ci ildə qarşıda duran vəzifələrə dair məruzə etmişdir.





Toplantıda qəsəbə ağsaqqalı Frans Vartanov, YAP qəsəbə ilk təşkilatının sədri Rövşən Balıyev, 5 nömrəli qəsəbə tam orta məktəbin direktoru Venera Antonova, toxumçuluq üzrə kəndli-fermer təsərrüfatının rəhbəri Əğalət Baxışov, «Orayin» Udi Mədəniyyət Mərkəzinin rəhbəri Oleq Danakari, Alban-Udi Xristian Dini İcmasının üzvü Rafik Danakari, 4 nömrəli qəsəbə tam orta məktəbin müəllimi Əvəz Əhmədov və qəsəbə yaradıcılıq evinin direktoru Vitali Koçari çıxış edərək regionlarda, həmçinin Qəbələ rayonunda və Nic qəsəbəsində sosial-iqtisadi sahədə görülən işlərə, adamlarımızın rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərə görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər. Çıxış edənlər Nicin son illər şəhər tipli qəsəbəyə çevrildiyini, qəsəbəyə qaz xəttinin çəkildiyini, yeni məktəb binalarının inşa olunduğunu, müasir park salındığını, yolların asfaltlaşdırıldığını dönə-dönə qeyd etmiş, buna görə ölkə başçısına öz razılıqlarını ifadə etmişlər.

Hesabat iclasını rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov yekunlaşdırmışdır.

***"Qəbələ".***

**İlkin Vəlizadə.**

# Vergilər Nazirliyinin əməkdaşları sahibkarlarla görüşüb

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış və 2017-ci ilin yanvar ayının 1-dən qüvvəyə minən "Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" və "Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanunlarının şərh edilməsi, vergi qanunvericiliyində baş vermiş dəyişikliklərin regionlarda çalışan sahibkarlara və iş adamlarına bilavasitə çatdırılması məqsədilə Vergilər Nazirliyi ölkənin regionlarında vergi ödəyiciləri ilə görüşlərə başlayıb. Növbəti görüş Qəbələ şəhərində 10 saylı Ərazi Vergilər İdarəsinin əhatə dairəsinə düşən Qəbələ, İsmayıllı və Oğuz rayonlarının sahibkarları ilə keçirilib.*





Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub. Qəbələ Mədəniyyət Mərkəzində davam edən görüşü rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev açıb.

Görüşdə çıxış edən vergilər nazirinin müavini Sahib Ələkbərov bu il Vergi Məcəlləsinə həm həcm, həm də mahiyyət baxımından olduqca ciddi dəyişikliklərin edildiyini bildirib.

Görüşdə çıxış edən Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri Vergi Məcəlləsində edilmiş əlavə və dəyişikliklərin ətraflı izahını verib.

Sonda tədbirdə iştirak edən vergi ödəyicilərinin çoxsaylı sualları cavablandırılıb.

Tədbiri rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev yekunlaşdırıb.

***"Qəbələ".***

**İlkin Vəlizadə.**